# Doğma Zəngilan, nə yaxşı ki, bağlı yolların açıldı...

***Bu gün Azərbaycan çox xoşbəxtdir. Onun şanlı tarixinə yeni-yeni qəhrəmanlıq səhifələri yazılır. Qəsbkar ermənilər tərəfindən işğal edilmiş torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasəti və rəhbərliyi, şanlı ordumuzun gücü ilə azad olunur. Xalqımız öz müqəddəs arzusuna çatır.***



Oktyabrın 20-də Ali Baş Komandan İlham Əliyevdən daha bir xoş xəbər aldıq: "Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib".

Bu xoş xəbər tariximizin qəhrəmanlıq səhifəsinə yazıldı. Bu xəbər mənə də sonsuz sevinc, yeni həyat bəxş etdi.

Mən zəngilanlıyam. Uşaqlıq və gənclik illərim Zəngilanda keçib, ömrümün ən xoşbəxt, firavan, unudulmaz günləri doğma torpağımızla bağlıdır. Xoşbəxtəm ki, yenə Zəngilana gedəcəyəm. Orada uşaqlıq və gənclik illərimi sanki yenidən yaşamağa başlayacağam. 27 ildir Zəngilanın yollarını, cığırlarını, uca-uca dağlarını, yaşıl-yaşıl dərələrini, sıx meşələrini, barlı-bəhrəli bağ-bağatlarını xəyallarımda gəzirdim, sərin bulaqlarını, çaylarını, göy çəmənlərini həmişə göz önünə gətirirdim. Mehriban uşaqlıq və gənclik dostlarımdan ayrı düşmüşdüm. İndi... İndi o günlər ötüb keçdi.

## *Yeni həyat başlanır*

Doğma yurd, 27 ildir əlimiz sənə çatmırdı, səsimiz sənə yetmirdi. Suların axırdı-axmırdı, bilmirdik. Güllərin, çiçəklərin açırdı-açmırdı bilmirdik, torpağının ətrini duymurduq. Yolların bağlı idi. Nə yaxşı ki, bağlı yolların açıldı...

Zəngilan rayonunun dünəni, bu günü və sabahı çox aktual mövzudur. Və bu mövzu aktualdır ona görə ki, Azərbaycanın ayrılmaz hissəsi olan Zəngilanın tarixi, coğrafiyası, təbiəti olduqca zəngin və maraqlıdır. Sahəsi 707 kvadratkilometr olan Zəngilan barədə əldə olunan tarixi faktlar bu ərazinin qədim və orta əsrlərdən tanındığını göstərir. Zəngilan adına ilk dəfə XIV əsr coğrafiyaşünas alimi Həmdullah Mustovfi Qəzvininin "Nüzhət əl-qulub" ("Könül nəşəsi") əsərində "Zəngiyan" şəklində təsadüf olunur. Zəngilan orta əsrlərdə inkişaf etmiş ərazilərdən olub. Diyarın müxtəlif yerlərində olan tarixi abidələri (Hacallı kəndindəki dairəvi bürc, Şərifan kəndindəki XIII əsrə aid sərdaba, Əmirxanlı kəndindəki qala (Qız qalası) və s.) bu fikri söyləməyə əsas yaradır.

Zəngilan öz əsrarəngiz təbiəti, zəngin fauna və florası ilə də diqqəti cəlb edir. Rayonda 117 hektar sahəni əhatə edən təbii çinar meşəsi (Bəsitçay Dövlət Təbiət Qoruğu) dünyanın ən nadir təbiət guşəsidir.

Yeraltı və yerüstü sərvətləri ilə zəngin olan Zəngilan şərəfli tarixi yol keçib. Onun tarixinə bir-birindən parlaq səhifələr daxildir. Həmin parlaq səhifələrdən biri də 2020-ci il oktyabrın 20-də - Zəngilanın bədnam ermənilərin işğalından azad olunduğu gün yazıldı. O gün heç zaman yaddan çıxmayacaq. Zamandan-zamana o gün böyük qürur hissləri ilə yad ediləcək.

Xoş gördük səni Zəngilan - 27 illik ayrılıqdan sonra... Bu da tarixin bir sınağı imiş... Bu sınaq göstərdi ki, könül candan, insan ana torpaqdan, ana yurddan ayrıla bilməz.

***İbrahim ƏSƏDOV,***
***AZƏRTAC-ın müxbiri***

Xalq qəzeti 2020.- 23 oktyabr.- S.5.